# Qazaxıstan XİN Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətlə əlaqədar bəyanatla çıxış edib

Bəyanatda deyilir: “Qazaxıstanın Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ ətrafında vəziyyəti diqqətlə izləyir. Dağlıq Qarabağ münaqişəsi zonasında atəşkəs rejiminin pozulmasına və insan itkiləri barədə xəbərlərə görə ciddi narahatlıq keçirdiyimizi bildiririk. Tərəfləri təmkin nümayiş etdirməyə və atəşin dayandırılması haqqında razılaşmaya ciddi riayət etməyə çağırırıq. ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ probleminin nizama salınması üzrə səylərini dəstəkləyərək, münaqişəni yalnız sülh yolu ilə həllinin zəruri olması haqqında mövqeyimizi bir daha təsdiq edirik”.

Sənəddə deyilir ki, Qazaxıstan “Dağlıq Qarabağ probleminin kompromisli həlli yollarının axtarışı prosesinin sürətləndirilməsinə tərəfdardır və münaqişənin həlli istiqamətində tərəqqinin əldə edilməsində maraqlı tərəflərin konstruktiv əhvali-ruhiyyəsinə ümid bəsləyir”.

***İlahə ƏHMƏDOVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Astana*